**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki Kollegiyasının**

# QƏRARI

**12 iyun 2018-ci il** **İŞ № 2(102)-4465/2018** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası hakimlər Əhmədov Əhməd Abbas oğlunun sədrliyi və məruzəsi ilə, İsgəndərov Akif Əsgər oğlu və Dəmirov İlqar Kamal oğlundan ibarət tərkibdə, məhkəmə iclas katibi Babayeva Lalə Tofiq qızı, iddiaçı , vəkili Həsənov Əkrəm Şirvan oğlu, cavabdeh Ləğv prosesində olan QSC "Bank Standart" KB-nın Ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun nümayəndəsi Quliyev Türhan Ceyhun oğlu və vəkili Əmənov Tural Rizvan oğlunun iştirakları ilə açıq məhkəmə iclasında,

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 13 fevral 2018-ci il tarixli, 2(103)-1809/2018 saylı qətnaməsindən cavabdeh Ləğv prosesində olan QSC "Bank Standart" KB-nın Ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun nümayəndəsi Quliyev Türhan Ceyhun oğlu və vəkili Əmənov Tural Rizvan oğlunun kassasiya şikayəti üzrə işə baxaraq

## MÜƏYYƏN ETDİ:

Bakı şəhəri Nəsimi rayon məhkəməsinin 10 oktyabr 2017-ci il tarixli, 2(006)-6764/2017 saylı qətnaməsi ilə (sədrlik edən, hakim A.İ.Paşayev) iddiaçı cavabdeh Ləğv prosesində olan QSC "Bank Standart" KB-nın Ləğvedicisi Əmanətlərin Sığortalanması Fonduna qarşı "14.403,51 ABŞ dolları məbləğində əmanətin və ona hesablanmış faizlərin tutulması" barədə iddiası rədd edilmişdir. İddiaçının nümayəndəsi Əkrəm Həsənov qətnamədən apellyasiya şikayəti vermişdir.

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 13 fevral 2018-ci il tarixli, 2(103)-1809/2018 saylı qətnaməsi ilə (hakimlər, R.Ə.Qurbanov sədrlik edən, məruzəçi, E.Q.Nəbiyev və A.N.İmanov) apellyasiya şikayəti təmin edilərək, iş üzrə Bakı şəhəri, Nəsimi rayon məhkəməsinin 10 oktyabr 2017-ci il tarixli qətnaməsi ləğv edilmiş, iddia ərizəsi təmin edilərək, cavabdeh təşkilatdan 14.403,51 ABŞ dolları məbləğində pulun tutulub iddiaçıya ödənilməsi qət edilmişdir. Cavabdeh təşkilatın nümayəndəsi Ramil Tahirov və vəkili Tural Əmənov qətnamədən kassasiya şikayəti vermişlər.

## İŞİN HALLARI:

İşdən görünür ki, iddiaçı məhkəmədə cavabdeh təşkilata qarşı "14.403,51 ABŞ dolları məbləğində əmanətin və ona hesablanmış faizlərin tutulması" barədə iddia qaldırmış və tələblərini onunla əsaslandırmışdır ki, QSC "Bank Standard" KB ilə onun arasında 01 avqust 2013-cü il tarixli "bank əmanəti müqavilə"si bağlanmış və həmin

müqaviləyə əsasən bank ondan 10.000 ABŞ dolları məbləğində pul vəsaitini əmanətə qəbul edərək, müqavilədə nəzərdə tutulan şərtlərlə və qaydada əmanət məbləğini ona qaytarmağı öhdəsinə götürmüşdür. Əmanəti 01 avqust 2013-cü il tarixdən 02 avqust 2016-cı il tarixədək, 36 ay müddətinə, illik 12,5 faizlə qoymuşdur. 01 avqust 2013-cü il tarixli depozit müqaviləsinə əlavə razılaşmaya əsasən 23 iyun 2016-cı il tarixdən 02 avqust 2016-cı il tarixədək, müqavilənin sonunadək illik 3 faizlə yerləşdirilir. Həmin əlavə razılaşmaya əsasən onun əmanət məbləği tam sığortalanmışdır. Öhdəliyin reyestrində 18 aprel 2017-ci il tarixli çıxarışa əsasən onun əmanətinin məbləği 14.403,51 ABŞ dollarına bərabərdir. 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 04 oktyabr 2016-cı il tarixli qərarı ilə "Bank Standard" QSC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu 04 oktyabr 2016-cı il tarixdən qeyd edilən bankın ləğvedicisi kimi fəaliyyətə başlamışdır. Ona ödənilməli olan əmanət cavabdeh təşkilat tərəfindən icra edilməli idi. Əmanətin qaytarılması barədə cavabdeh təşkilata müraciət etsə də, sonuncu əmanəti ona qaytarmaqdan imtina etmişdir. Ona görə də iddia ərizəsinin təmin edilməsi barədə qətnamə çıxarılmasını xahiş edir.

Mübahisə üzrə yuxarıda göstərilən məhkəmə aktları qəbul edilmişdir.

## KASSASİYA ŞİKAYƏTİNİN DƏLİLLƏRİ

Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, apellyasiya instansiyası məhkəməsi işə baxarkən maddi, prosessual hüquq normalarının tələblərini pozaraq, işin həqiqi halları üzrə səhvə nəticəyə gəlmiş, işə əlavə edilmiş sübutlara düzgün hüquqi qiymət verməmişdir.

Kassasiya şikayətində iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilib, işin yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə qaytarılması barədə qərar qəbul edilməsi xahiş olunmuşdur.

Kassasiya şikayətinə dair etiraz ərizəsi daxil olmamışdır.

## İŞDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏRİN İZAHATLARI

Məhkəmə iclasında cavabdeh Ləğv prosesində olan QSC "Bank Standart" KB-nın Ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun nümayəndəsi Türhan Quliyev və vəkili Tural Əmənov kassasiya şikayətində göstərilənlərə uyğun olaraq eyni məzmunlu izahatlar vermişlər.

İddiaçı                                   və vəkili Əkrəm Həsənov məhkəmə iclasında kassasiya şikayətinin dəlilləri ilə razılaşmayıb izahatlarında iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin dəyişdirilmədən saxlanılmasını xahiş etmişlər.

## HÜQUQİ MƏSƏLƏLƏR

Kassasiya instansiyası məhkəməsi məruzəçini, işdə iştirak edən şəxslərin izahatlarını dinləyib, kassasiya şikayətinin dəlillərini müzakirə edib, apellyasiya instansiyası məhkəməsinin maddi, prosessual hüquq normalarının tələblərini düzgün tətbiq etməsini yoxlayıb, hesab edir ki, aşağıdakılara görə kassasiya şikayəti təmin edilmədən, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalıdır.

Belə ki, Azərbaycan Respublikası MPM-nin 416-cı maddəsinə əsasən kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini ləğv edib, iddia ərizəsini təmin edərkən, birinci instansiya məhkəməsinin işin yuxarıda müəyyən edilmiş həqiqi halları və tərəflərin qarşılıqlı münasibətləri üzrə səhv nəticəyə gəlməsinə, iddia ərizəsinin təmin edilməsi üçün əsasların olmasına istinad etmiş və hüquqi

mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 944.1, 947.1, 947.4-cü maddələrinin və digər maddi, prosessual hüquq normalarının tələbləri ilə əsaslandırmışdır.

Kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsinin gəldiyi bu nəticə ilə razılaşıb hesab edir ki, apellyasiya instansiyası məhkəməsi işə baxarkən maddi, prosessual hüquq normalarının tələblərini hazırkı mülki mübahisəyə düzgün tətbiq etmişdir və işdə, apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsi üçün qanuni əsaslar yoxdur.

Belə ki, işin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən edilmiş həqiqi hallarından görünür ki, QSC "Bank Standard" KB ilə iddiaçı arasında 01 avqust 2013-cü il tarixli "bank əmanəti müqavilə"si bağlanmış və həmin müqaviləyə əsasən bank iddiaçıdan 10.000 ABŞ dolları pul vəsaitini qəbul edərək müqavilədə nəzərdə tutulan şərtlərlə və qaydada əmanət məbləğini ona qaytarmağı öhdəsinə götürmüşdür. Əmanət 01 avqust 2013-cü il tarixdən 02 avqust 2016-cı il tarixədək, 36 ay müddətinə, illik 12,5 faizlə qoyulur. 01 avqust 2013-cü il tarixli depozit müqaviləsinə əlavə razılaşmaya əsasən 23 iyun 2016-cı il tarixdən 02 avqust 2016-cı il tarixədək, yəni müqavilənin son müddətinədək əmanət illik 3 faizlə yerləşdirilir. Həmin əlavə razılaşmaya əsasən iddiaçının əmanət məbləği tam sığortalanmışdır. 1 Saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 04 oktyabr 2016-cı il tarixli qərarı ilə "Bank Standard" QSC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu 04 oktyabr 2016-cı il tarixdən qeyd edilən bankın ləğvedicisi kimi fəaliyyətə başlamışdır.

İddiaçı bildirir ki, öhdəliklərin reyestrindən 18 aprel 2017-ci il tarixli çıxarışa əsasən onun əmanətinin məbləği 14.403,51 ABŞ dollarına bərabərdir. 04.10.2016-cı il tarixdən etibarən bank müflis elan edildiyinə görə "Əmanətlərin sığortalanması haqqında" və "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikası Qanunlarına əsasən ona ödənilməli olan məbləğ məhz cavabdeh təşkilat tərəfindən icra edilməli idi. O, bununla əlaqədar olaraq cavabdeh təşkilata müraciət etmişdir. Cavabdeh təşkilat isə əmanətin qaytarılmasından imtina etmiş və bunu belə əsaslandırmışdır ki, o, bütün məlumatları müvafiq bankın məlumat bazasından götürür, öz elektron məlumat sisteminə yükləyir və sığorta ödənişlərini həmin məlumatlar əsasında icra edir. Sığorta hadisəsinin baş verdiyi bankdakı məlumatlarda yanlışlıq baş veribsə, bu yanlışlığın aradan qaldırılması məsələyə hüquqi qiymət verildiyi təqdirdə mümkündür. Ləğv prosesində olan bankın yol verdiyi qeydiyyat xətalarını isə öz mülahizəsinə uyğun olaraq aradan qaldırmaq ləğvedicinin səlahiyyəti xaricindədir. Məsələyə aidiyyəti məhkəmə tərəfindən hüquqi qiymət verildikdən sonra həll oluna bilər.

Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin gəldiyi nəticə və hüquqi əsaslandırma ilə razılaşmayıb haqlı olaraq qeyd etmişdir ki, birinci instansiya məhkəməsi tərəflər arasında bağlanmış 01 avqust 2013-cü il tarixli depozit müqaviləsinin 02 avqust 2016-cı il tarixədək qüvvədə olmasını, sığorta hadisəsinin isə bundan sonra baş verməsini göstərib, həmin əmanətin qorunmayan əmanət olması qənaətinə gələrkən, maddi hüquq normalarının tələblərini pozmuş və işin müəyyən edilmiş həqiqi halları üzrə səhv nəticəyə gəlmişdir.

Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 944.1-ci maddəsinin tələblərinə görə bank əmanəti (depozit) müqaviləsinə görə bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.

Həmin Məcəllənin 947.1-ci maddəsinə əsasən bank əmanəti müqaviləsi əmanətin ilk tələb üzrə verilməsi şərti ilə (tələbli əmanət) və ya əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra şərti ilə (müddətli əmanət) bağlanır.

Müqavilədə əmanətlərin qanuna zidd olmayan başqa qaytarma şərtləri ilə də qoyulması nəzərdə tutula bilər.

Həmin Məcəllənin 947.4-cü maddəsinə əsasən əmanətçinin müddətli əmanətin məbləğini müddət qurtardıqdan sonra və ya başqa qaytarma şərtləri ilə qoyulmuş əmanətin məbləğini müqavilədə nəzərdə tutulmuş hallar baş verdikdən sonra qaytarmağı tələb etmədiyi hallarda müqavilə tələbli əmanətin şərtləri ilə uzadılmış sayılır, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

Qeyd olunan maddi hüquq normalarının məzmunundan müəyyən olunur ki, bank əmanəti müqaviləsi üzrə əmanətlərin tələbli əmanət və müddətli əmanət adlanan iki növü vardır. Belə ki, bank əmanəti müqaviləsi əmanətin ilk tələb üzrə verilməsi şərti ilə bağlandıqda tələbli əmanət, müqavilə əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra verilməsi şərti ilə bağlandıqda isə müddətli əmanət hesab edilir. Əmanətçi müddətli əmanətin məbləğini müddət qurtardıqdan sonra və ya əmanəti qaytarma şərti kimi nəzərdə tutulmuş hal baş verdikdən sonra qaytarmağı tələb etməzsə, müqavilə tələbli əmanətin şərti ilə uzadılmış sayılır.

Göründüyü kimi bank əmanətinin bir növü olan müddətli əmanətin yerini onun digər növü olan tələbli əmanət tutur. Belə ki, ilkin müddətli əmanət müqaviləsində müəyyən edilmiş müddət bitmiş və əmanətçinin əmanətin məbləğini tələb etmək hüququ yaranmışdır. Əmanətçi bu hüquqdan istədiyi vaxt tələbli əmanət qaydasında istifadə edə bilər.

İddiaçı ilə QSC "Bank Standard" KB arasında bağlanmış "bank əmanəti müqaviləsi"nin 2.7-ci bəndinə əsasən əgər əmanətçi depozit müqaviləsinin müddəti bitənədək öz əmanətini tələb etməmişdirsə və ya həmin müqavilənin uzadılması, yaxud dəyişdirilməsi barədə tərəflər razılıq əldə etməmişlərsə, onda Müqavilə həmin Müqavilədə nəzərdə tutulmuş depozit növü üçün Bankda müəyyən edilmiş və qüvvədə olan şərtlərlə uzadılmış hesab edilir, bir şərtlə ki, 2.7.2-ci bəndi tətbiq edilməsin.

Həmin müqavilənin 2.7.2-ci bəndində isə göstərilmişdir ki, həmin Müqavilənin müddətinin bitdiyi gün Bankda bəhs edilən Müqavilədə nəzərdə tutulmuş depozit növü üçün müəyyən edilmiş şərtlər altında müqavilənin müddətinin uzadılması mümkün olmadığı halda depozit müqaviləsinə xitam verilir.

Hazırkı işdə də iddiaçı ilə QSC "Bank Standard" KB arasında bağlanmış standart bank əmanəti müqaviləsinin müddəti, həmin müqavilənin müddətinin qurtardığı tarixdə, yəni 02 avqust 2016-cı il tarixdə həm həmin müqavilənin 2.7-ci bəndinin tələblərinə, həm də, Mülki Məcəllənin 947.4-cü maddəsinin tələblərinə uyğun olaraq eyni şərtlərlə uzadılmış və müqavilənin növü dəyişərək, müddətli əmanət müqaviləsindən tələbli əmanət müqaviləsinə çevrilmişdir.

Eyni zamanda həmin tərəflər arasında bağlanmış 01 avqust 2013-cü il tarixli depozit müqaviləsinə əlavə razılaşmanın 8.2-ci bəndinə əsasən əgər əmanət "Əmanətlərin sığortalanması haqqında" Qanuna və "Əmanətlərin tam sığortalanması haqqında" Qanuna uyğundursa, onda əmanətlər həmin qanunlara uyğun olaraq sığortalanırlar və sığorta hadisəsi baş verdikdə Əmanətlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalanmış əmanət üzrə kompensasiya ödənilir.

İşin mübahisəsiz halları isə ondan ibarətdir ki, "Bank Standard" QSC 04 oktyabr 2016-cı il tarixdən müflis elan edilmiş, yəni "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununun 2.1.9-cu maddəsinə uyğun olaraq sığorta hadisəsi baş vermişdir.

Həmin Qanunun 4.1.4-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu sığorta hadisəsi baş verdikdə, əmanətçilərin tələblərinin uçotunu aparır və kompensasiya ödəyir.

Həmin Qanunun 25.1.4-cü maddəsinə əsasən əmanətçilərin bu qanuna uyğun olaraq əmanətlər üzrə kompensasiya almaq hüquqları vardır.

Həmin Qanunun 26.1-ci maddəsinə əsasən fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

Həmin Qanunun 26.2-ci maddəsinə əsasən sığorta hadisəsi baş verdiyi günə əmanətçinin iştirakçı bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla əmanətçinin bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi qorunan əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir.

Həmin Qanunun 27.2-ci maddəsində isə təsbit olunmuşdur ki, əmanətlər üzrə faizlər sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödənilir, bu şərtlə ki, kompensasiya bu qanunun 26.1-ci maddəsində göstərilən məbləğdən artıq olmasın.

"Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanunun 3-cü maddəsinə əsasən bu Qanun qüvvəyə mindiyi gündən etibarən faizləri "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan Fondun iştirakçı bankları tərəfindən 3 (üç) il müddətində tam sığortalanır.

Həmin Qanunun 5-ci maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondunun iştirakçı banklarında sığorta hadisəsi baş verdikdə tam sığortalanmış əmanət üzrə kompensasiya əmanətin 100 faizi həcmində "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulan şərt tətbiq edilmədən ödənilir.

Həmin Qanunun 5.2-ci maddəsinin tələblərinə görə isə bu Qanunun 3-cü maddəsində nəzərdə tutulmuş müddət bitdikdən sonra tam sığortalanmış əmanətlər üzrə kompensasiyaların həcmi "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsinə əsasən müəyyən edilir.

Qeyd olunan maddi hüquq normalarının tələblərini və işin faktiki hallarını nəzərə alıb, apellyasiya instansiyası məhkəməsi düzgün olaraq qeyd etmişdir ki, hazırkı işdə də sığorta hadisəsi baş verdiyinə görə iddiaçı depozit müqaviləsinə və ona edilmiş əlavə razılaşmanın şərtlərinə əsasən Əmanətlərin Sığortalanması Fondundan həmin müqavilə üzrə banka qoyulmuş əmanətin faizləri ilə birlikdə geri qaytarılmasını tələb etməkdə haqlıdır.

Apellyasiya instansiyası məhkəməsi apellyasiya şikayətinin dəlillərini araşdırıb qeyd etmişdir ki, iddia ərizəsini rədd etməklə birinci instansiya məhkəməsi düzgün nəticəyə gəlməmişdir. Belə ki, QSC "Bank Standard" Kommersiya Bankının əmanət məhsullarının şərtlərində dəyişiklik edilməsinə dair 03 mart 2016-cı il tarixli əmri tərəflər arasında bağlanmış müqaviləyə münasibətdə heç bir əhəmiyyətə malik deyil. Çünki həmin əmrdə iddiaçı ilə bağlanmış ABŞ dolları valyutasında 24 ay müddətli "Standard" əmanət məhsulunun ləğv edilməsi göstərilməmişdir. Eyni zamanda iddiaçı ilə bağlanmış müqavilədə nəzərdə tutulan müddətin sonunda, yəni 02 avqust 2016-cı il tarixdə QSC "Bank Standard" KB-da həmin müqavilənin şərtlərinə uyğun olan sığortalı bank əmanət müqavilələrinin mövcud olmadığını təsdiq edən sübutlar təqdim olunmamışdır. Belə olan halda isə tərəflər arasında bağlanmış standart bank əmanəti müqaviləsinin 2.7.2-ci bəndinin tətbiq edilməsi üçün əsaslar mövcud deyil və müqavilənin 2.7-ci bəndinə əsasən tərəflər arasında bağlanmış müqavilə eyni şərtlərlə uzadılmış hesab edilir.

Bu baxımdan apellyasiya instansiyası məhkəməsi haqlı olaraq qeyd etmişdir ki, müqavilə müddəti bitdikdən sonra həmin müqavilənin standart müqaviləyə çevrilməsi və buna görə də artıq əmanətin geri qaytarılmamalı olması ilə bağlı cavabdeh təşkilatın arqumentləri də tam əsassızdır.

Həmçinin iddiaçının əmanəti vaxtında bankdan götürməməsi və müqavilə müddətinin uzadılması barədə banka müraciət etməməsi barədə cavabdeh təşkilatın kassasiya şikayətində göstərdiyi dəlillər də əsassızdır. Belə ki, apellyasiya instansiyası məhkəməsinin iclasında cavabdeh tərəfin nümayəndəsi izahatında etiraf edərək göstərmişdir ki, 2016-cı ilin may-sentyabr aylarında öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirilmiş və həmin dövrdə əmanətlərin çıxarılması qeyri mümkün idi.

Göründüyü kimi tərəflər arasında müqavilə müddətinin bitdiyi tarixdə iddiaçı istəsəydi belə əmanəti bankdan geri götürə bilməzdi. İddiaçının müqavilə müddətinin uzadılması ilə bağlı müraciət etməməsi ilə bağlı apellyasiya instansiyası məhkəməsi düzgün olaraq qeyd etmişdir ki, iddiaçının həm tərəflər arasında bağlanmış müqavilənin 2.7-ci bəndinə, həm də Mülki Məcəllənin 447-ci maddəsinin tələblərinə görə müqavilə müddətinin uzadılması ilə bağlı müraciət etməmək hüququ olmuşdur. Çünki, iddiaçı əsaslı olaraq müqavilənin həmin şərtinə və qanunun tələbinə əsasən müqavilənin sadəcə növünün dəyişdiyini, yəni müddətli əmanət müqaviləsindən tələbli əmanət müqaviləsinə çevrildiyini və tələbli əmanət müqaviləsinə əsasən istənilən an bankdan əmanətini geri götürmək hüququnun olduğunu və müqavilənin eyni şərtlərlə davam etdiyini güman etmişdir.

Bundan əlavə iş materiallarından müəyyən olunur ki, QSC "Bank Standard" KB ilə iddiaçı arasında 01 avqust 2013-cü il tarixli "bank əmanəti müqaviləsi"si bağlanmış və həmin müqaviləyə əsasən bank əmanətçidən 10.000 Avro məbləğində pul vəsaitini qəbul edərək müqavilədə nəzərdə tutulan şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı öhdəsinə götürmüşdür. Əmanət 01 avqust 2013-cü il tarixdən 02 avqust 2015-ci il tarixinədək, 24 ay müddətinə, illik 4 faizlə qoyulmuşdur. Eyni zamanda cavabdeh təşkilat tərəfindən həmin müqavilə üzrə 18 aprel 2017-ci il tarixdə iddiaçıya 9.402 ABŞ dolları (8396,79 Avro) kompensasiya ödənilmişdir.

Göründüyü kimi cavabdeh təşkilat tərəfindən iddiaçıya eyni tarixdə bağlanılmış iki depozit müqaviləsinin biri üzrə kompensasiya ödənilmiş, digər üzrə isə ödənilməsində imtina edilmişdir.

Kassasiya instansiyası məhkəməsi kassasiya şikayətinin dəlillərini müzakirə edib, işin yuxarıda qeyd olunan faktiki hallarını, sadalanan qanunvericilik aktları normalarının tələblərini nəzərə alıb, hesab edir ki, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi qanuni, əsaslı olduğundan və işdə, qətnamənin kassasiya qaydasında ləğv edilməsi və ya dəyişdirilməsi üçün qanuni əsaslar olmadığından və kassasiya şikayətinin dəlilləri öz təsdiqini tapmadığından, iş üzrə apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən, kassasiya şikayəti isə təmin edilmədən saxlanılmalıdır.

Şərh edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 416-420-ci maddələrinin tələblərini rəhbər tutaraq kassasiya instansiyası məhkəməsi

## QƏRARA ALDI:

Cavabdeh Ləğv prosesində olan QSC "Bank Standart" KB-nın Ləğvedicisi Əmanətlərin Sığortalanması Fondunun nümayəndəsi Quliyev Türhan Ceyhun oğlu və vəkili Əmənov Tural Rizvan oğlunun kassasiya şikayəti təmin edilməsin.

İş üzrə Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 13 fevral 2018-ci il tarixli, 2(103) 1800/2018 saylı qətnaməsi onun kassasiya şikayətinə əsasən dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

Sədrlik edən:

Əsli ilə düzdür
Ali Məhkəmənin hakimi Əhməd Əhmədov